# Hörmətli Adnan Oktarın yeni izahları (6 noyabr 2012; 01:00)

**(Nəml surəsi, 27)**

**Süleyman dedi: "Baxaq görək, sən doğru deyirsən, yoxsa yalançılardansan.**

Hz. Süleyman bax; "Baxacağıq" -deyir, "Doğru mu söylədin," Hüdhüdə. Birisindən bir xəbər gəldiyi vaxt dərhal əmin olmaq olmaz. Nə deyir? "Baxacağıq". "Əvvəlcə baxacağam" -deyir. **"... sən doğru deyirsən, yoxsa yalançılardansan".** Deyil mi, insanın kor-koranə inanması olmaz, araşdırmaq lazımdır.

**(Nəml surəsi, 28)**

**Mənim bu məktubumu apar onların yanına at. Sonra bir qədər uzaqda dur və bax gör nə cavab verəcəklər!"**

**"Mənim bu məktubumu apar onların yanına at".** Demək ki, təbliğ məktubla da olar, kitab göndərərək də olar, uzaqdan da olar. Hökmən getmək şərt deyil. **"... onların yanına at. Sonra bir qədər uzaqda dur".** Çünki biraz düşünsünlər, oxusunlar. Həmən kitabı verər-verməz, bir yazını verər-verməz gedib həmən "Qənaətin nədir?" deyilməz. Biraz uzaqlaş, zaman ver, biraz düşünsün, araşdırsın. **"... bax gör nə cavab verəcəklər!"** Nə tərzdə bir reaksiya göstərəcəklər. Yəni, insanları analiz etməyin, hadisələri analiz etməyin əhəmiyyətinə Quran diqqət çəkir. Analiz edərək hərəkət etmək, vəziyyətə görə hərəkət etmək, hərəkət dəyişdikcə də vəziyyəti ona görə dəyişdirmək.

**(Nəml surəsi, 29)**

**Qadın dedi: "Ey əyanlar! Mənə çox əhəmiyyətli bir məktub atıldı".**

Səba Hökmdarına məktub veriləndə deyir ki, Səba Hökmdarı; **"Ey əyanlar! Mənə çox əhəmiyyətli bir məktub atıldı".** Demək ki, məsləhətləşir, məsləhətləşmək var.

**(Nəml surəsi, 30)**

**"O məktub Süleymandandır və onda deyilir: "Mərhəmətli və Rəhmli Allahın adı ilə!"**

"Bismillahirrəhmanirrəhim". Bax, bizim də hər kitabımız, "Rəhman və Rəhim olan Allahın adı ilə" deyə başlayır. Məsələn, hər kitabımızın içində var. O, hz. Süleymanın məktubundan bir sitatdır. Və Möhrü Şərif; Allah, Rəsul Məhəmməd, inşaAllah. O möhrü kitablarda yaradan da Allahdır, maşaAllah.

**(Nəml surəsi, 31)**

**"Mənə qarşı təkəbbür göstərməyin və yanıma müsəlman olaraq gəlin!"**

**"Mənə qarşı təkəbbür göstərməyin".** Çünki təkəbbür ən əhəmiyyətli şeydir. Təəbbürü olan birinə təbliğ edə bilməzsən, bir şey izah edə bilməzsən. Əvvəlcə təkəbbürü getməlidir. Allaha qul olduğunu bilməlidir. **"Və yanıma müsəlman olaraq gəlin!"** Yəni, iman etməsini təlqin edir.

**(Nəml surəsi, 32)**

**Qadın dedi: "Ey əyanlar! Bu iş barəsində mənə məsləhət verin. Mən heç vaxt siz yanımda olmayınca qəti qərar verməmişəm".**

**"Qadın dedi: "Ey əyanlar! Bu iş barəsində mənə məsləhət verin"** İstişarənin əhəmiyyəti. İstişarə edir. Qadın lider, o dövrün prezidenti, dövlət başçısı. Öndə gələnlərə yəni, bilən insanlara sual verir. **"Bu iş barəsində mənə məsləhət verin".** Yəni sizin düşüncəniz nədir, fikriniz nədir? **"Mən heç vaxt siz yanımda olmayınca qəti qərar verməmişəm"** -deyir. Bax, "İstişarə etmədən, şahidliyini, fikrini bildirmədən mən qərar verməərəm" -deyir. Ən ağıllı, ən doğru hərəkət budur. İstişarədir. Peyğəmbərlərdə də istişarə vardır. Həkimlərdə də istişarə lazımdır. Məhz istişarənin əhəmiyyəti.

**(Həcc surəsi, 16)**

**Beləcə, Biz Quranı açıq-aydın ayələr kimi nazil etdik. Allah istədiyi kəsi doğru yola yönəldir.**

**"Beləcə, Biz Quranı açıq-aydın ayələr kimi nazil etdik".** "Qapalı deyil" -deyir Allah, "Çox qəti başa düşərsiniz, açıq-aydın ayələr olaraq endirdik". **"Allah istədiyi kəsi doğru yola yönəldir".** Yəni, Allahın hidayətə yönəltdiyini dəlalətə sala bilmirsən, dəlalətə düşmür Əlhəmdülillah. Dəlalətə saldığını da hidayətə çatdırmaq mümkün deyil. Yəni, nə edirsən et, olmaz.

**(Həcc surəsi, 19)**

**Onlar öz Rəbbi barəsində höcətləşən iki dəstədir. Kafirlər üçün oddan paltar biçiləcək, başlarına da qaynar su töküləcəkdir.**

**"Onlar öz Rəbbi barəsində höcətləşən iki dəstədir. Kafirlər üçün oddan paltar biçiləcək".** Cəhənnəmdə geyindikləri paltarlar onlara od şəklində görünəcək. Yəni,

alov formasında. Onlara paltarlar paylanılır, amma oddan olan paltarlar. Amma o bildiyimiz od şəklində deyildir. **"Başlarına da qaynar su töküləcəkdir".** Bildiyimiz qaynar su yox. Cəhənnəmin suyudur o, o ayrı bir şeydir. Məsələn, "Hüceyrələrə qədər təsir edər" -deyir Allah.

**(Həcc surəsi, 21)**

**Onlar üçün dəmir toppuzlar da hazırlanmışdır.**

Bildiyimiz dəmir deyil, cəhənnəm dəmiri, cəhənnəm qamçısı. Yəni bütün fizika qanunları müxtəlifdir orada, kimya qanunları da müxtəlifdir, yəni maddənin quruluşu müxtəlifdir. Buna görə də bizim bildiyimiz dəmir mənasında olmur.

https://www.harunyahya.info/az/meqaleler/hormetli-adnan-oktarin-yeni-izahlari-6-noyabr-2012-0100